

Sabah – iyunun 10-da ATƏT-in Minsk qrupunun həmsədrləri regiona səfər edəcək. Səfərin məqsədi münaqişə zonasında vəziyyəti araşdırmaqdır.

Ermənistanın xarici işlər nazirinin müavini Savarş Koçaryan həmsədrlərin Vyana və Sankt-Peterburq razılaşmalarının yerinə yetirilməsinə nail olmaq, atəşkəsə nəzarət mexanizminin yaradılması məsələsini müzakirə etmək məqsədilə gəldiklərini açıqlayıb. Ermənistan mediası da həmsədrlərin səfəri öncəsi atəşkəsə nəzarət mexanizminin yaradılmasının vacibliyini cənfəşanlıqla təbliğ edir.

Ötən ilin 16 may tarixində keçirilən Vyana görüşündə atəşkəsə nəzarət mexanizmi müzakirə olunmuşdu, lakin iyunun 20-də keçirilən Sankt-Peterburq görüşünün rəsmi açıqlamasında bu məsələ qeyd olunsa da, əsas müzakirə mövzusunun ərazilərin qaytarılması olduğu məlum idi. İrəvan isə nəzarət mexanizminin yaradılmasını israrla vurğulayır. Bu baxımdan, Savarş Koçaryanın "ehtimalları" təsadüfi deyil. Əslində, İrəvan bununla səfər öncəsi nəzarət mexanizmini yenidən gündəmə gətirmək istəyir.

Atəşkəsə nəzarət mexanizmi münaqişə zonasında beynəlxalq müşahidəçilərin sayının artırılması, silahsızlaşdırma, qoşunların hərəkətlərinin izlənilməsi, atəşkəs rejiminin pozulması hadisələrinin araşdırılması, bunun üçün regiona xüsusi "lokatorlar"ın yerləşdirilməsi kimi məsələləri əhatə edir. Atəşkəsi pozan tərəflər üçün sərt cəzalar, iqtisadi və siyasi sanksiyalar tətbiq edilməlidir. "Roys-Engel ideyası" adlanan bu təklif konqresmenlər Ed Roys və Eliot

Engelə məxsusdur. Hər iki şəxs açıq şəkildə erməni lobbisi şəbəkəsində təmsil olunurlar. Burada əsas hədəf Ermənistanın işğal siyasətini möhkəmləndirmək, düşmən ölkəyə vaxt qazandıraraq, münaqişəni uzatmaqdır. Çünki belə bir mexanizmin qurulması Azərbaycanın beynəlxaq hüquqa əsasən ərazi bütövlüyünü bərpa etmək üçün gücdən istifadə etmək imkanını məhdudlaşdırır.

Bakının qarşı çıxdığı mexanizmlərin yaradılması məsələsi ötən il "aprel müharibəsi"ndən sonra gündəmə gəlmişdi. Lakin sonra maliyyə və digər məsələlər əsas gətirilərək, bu, təxirə salındı. Məsələnin təxirə salınmasında Rusiyanın da rolu var. Belə mexanizmin qurulması Azərbaycana işğalın möhkəmləndirilməsi baxımından sərf etmirsə, ruslara da münaqişə üzərində nəzarəti itirmək baxımından sərfəli deyil. Çünki Qərb belə mexanizmlə beynəlxalq müşahidəçiləri təmas xəttinə yerləşdirmək və rusların sülhməramlı arzularını puça çıxarmaq niyyətindədir. Son proseslər Qərbin bu istəyindən əl çəkmədiyini göstərir.

Bütün bunların fonunda Azərbaycan mövqelərinə hücuma hazırlaşan erməni hərbi birləşmələrinin "OSA" zenit-raket kompleksinin məhv edilməsinə görə Minsk qrupunun Bakını ittiham etməsi təsadüfi deyildi. O da təsadüf deyil ki, Dağlıq Qarabağ münaqişəsi üzrə ixtisaslaşmış Beynəlxalq Böhran Qrupu münaqişə zonasında hər an müharibənin başlaması haqda proqnoz verdi. Hesab etmək olar ki, Qərb vəziyyətin gərgin olduğu haqda beynəlxalq rəy yaradaraq, son nəticədə nəzarət mexanizmini yaratmaq istəyir. Hansı ki, bu, Ermənistanın əlini gücləndirəcək. Bu baxımdan, Ermənistanın nəzarət mexanizminin yaradılması üçün Qərbə "kömək edəcəyi" istisna deyil.
Hansı köməkdən söhbət gedir?: Mümkündür ki, Ermənistan bu gün, yaxud sabah cəbhədə gərginliyi artırmaq üçün təxribat hücumlarına keçsin. Hətta bu hücumların müharibəyə sövq edəcək həddə olması da gözlənilməndir. Ermənistan belə hücumla münaqişə zonasında gərginliyi artıraraq, qərbli həmsədrlərə nəzarət mexanizmi üzərində israrla dayanmasına əsas verə bilər. Bu ərəfədə cəbhədə atılan hər gülləyə və yaranacaq gərginliyə görə məsuliyyəti Ermənistan daşıyır. Bu baxımdan, ehtiyatlı olmalıyıq.